**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**MƏKTƏBƏQƏDƏR TƏHSIL**

**TƏSDİQ EDİRƏM**
**Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri**
**M. İ. İlyasov prof. _____________**

**“ ” saylı protokol gün, ay, il**

# FƏNN SİLLABUSU
**(İşçi tədris proqramı)**

**İxtisasın kodu və adı:** 050112 Məktəbəqədər təhsil
**Kafedra:** Məktəbəqədər təhsilin pedaqogikası
**Fənn haqqında məlumat:**
**Fənnin kodu və adı: İF-B17 Məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət**
**Kredit sayı:** 5
**Təhsil səviyyəsi**: Bakalavriat
**Tədris yükü (saat) cəmi:** 150 ümumi saat, 90 auditoriyadan kənar saat, 60 auditoriya saatı, 30 mühazirə saatı, 30 seminar məşğələ saatı
**Tədris ili:** 2024/2025; **Semestr: VII** payız; **Bölmə:** Azərbaycan **Qrup:** (mühazirə)

**I. Müəllim haqqında məlumat:**

Məsləhət günləri və saatları:
E-mail ünvanı:
**İş telefonu:**

**II. Fənnin öyrədilməsi üçün materiallar:**

**Zəruri ədəbiyyatlar:**


1.R.Mursaqulova, N.Rüstəmova. Məktəbəqədər pedaqogika (Dərslik).Bakı-2002. ADPU
2.A.Həsənov Məktəbəqədər pedaqogika. Bakı, “Nasir” nəşriyyatı, 2000
3.İsmixanov M. Pedaqogikanın əsasları. Bakı – 2003.
4.Kazımov N. və s. Pedaqogika. Bakı – 1996.
5.İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı, Elm və təhsil, 2013.
6.Zeynalova Z.,Cəmilzadə S.Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi və inkişaf..Bakı.2014
7. Sadıqova T.B. Uşaq bağçasında fiziki mədəniyyət. Bakı, Nasir, 2013 , 290 səh.
8.Sadıqova T.B .Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili. Bakı, Nərgiz , 2010, 200 səh.
9. Sadıqova T.B . Uşaqlar üçün qaydalı oyunlar. Bakı, Çaşıoğlu, 2009
10. Sadıqova T.B. Məktəbəqədər pedaqogika. Bakı, Nərgiz, 2020
11. SadıqovaT.B . Məktəbəqədər təhsil müəssisələrinin ailələrlə əməkdaşlığı. Bakı, 2024
12. SadıqovaT.B. Uşaq bağçasının böyük qrupunda fiziki mədəniyyət məşğələləri. Bakı, Nərgiz, 2009, 160 səh.
13. SadıqovaT.B. Məktəbəhazırlıq qrupunda fiziki mədəniyyət məşğələləri. Bakı, Çaşıoğlu, 2009
14. Sadıqova T.B. Məktəbəqədər təhsil müəssisələrində uşaq oyunlarının təşkili. Bakı, 2023


Əlavə tövsiyə olunan ədəbiyyatlar:


1.Kazımov N. Tərbiyənin elmi – pedaqoji əsasları. Bakı – 1993.
2.Azərbaycan Respublikasının Konstitusiyası. B., 1995.
3.Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı – 1993.
4. SadıqovaT.B. Uşağın məktəbə fiziki hazırlığında məşğələlərin rolu. Məktəbəqədər və ibtidai təhsil, Bakı, 2018, №4 Səh. 34-36

5. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 14 aprel 2017
6. Məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı – 2022
7. Məktəbəqədər təhsilin dövlət standartları. Bakı, 2019

**III** **<u>Fənnin təsviri</u>:** Uşaq bağçasında fiziki tərbiyə fənni gələcək kadrların peşə hazırlığına yiyələnmələrində böyük əhəmiyyət kəsb edir. Uşaq bağçasında fiziki tərbiyə fənni məktəbəqədər yaşlı uşaqların fiziki inkişafından bəhs etməklə bu prosesin məktəbəqədər müəssisələrdə təlim olunması haqqında elm olmaqla aparıcı fənn hesab edilməklə pedaqoji, psixoloji və metodik hazırlığın ana xəttini təşkil edir.
**<u>Fənnin hədəf və məqsədi</u>:**. **"**Uşaq bağçasında fiziki tərbiyə" fənni gələcək kadrlarda məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi haqqında müəyyən bilik, bacarıq və vərdişlərin aşılanması məqsədi daşıyır.
**<u>Fənnin qısa məzmunu</u>:** Bu məsələləri əhatə edir.
"Uşaq bağçasında fiziki tərbiyə" fənni tədris planına əsasən 85 saat auditoriya məşğələsindən ibarətdir: 45saat mühazirə və 30 saat seminar.Fiziki tərbiyənin ümumtərbiyə prosesinin çox mühüm aparıcı tərkib hissələrindən biri olmaqla uşaqların sağlam, möhkəm böyümələrini, düzgün fiziki inkşaf və s. məsələlərin həyata keçirilməsində fiziki tərbiyənin müvəffəqiyyətli həllinində boyük əhəmiyyətini; - məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsininnin elmi-nəzəri əsaslarını; -məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi üzrə əsas anlayışları; - məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsinin vastələrini, metodlrını və təşkili formalarını; - məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyə işinə rəhbərliyi məsələlərinin öyrədilməsi.

| **Məktəbəqədər təhsil müəssisələrində fiziki mədəniyyət** |
|---|
| FTN 1 Fiziki mədəniyyətin nəzəri əsaslarını və onun tədrisi metodikasını təhlil edir |
| FTN 2 Fiziki mədəniyyətin tədrisi üçün müvafiq metod və vasitələri müəyyənləşdirir |
| FTN 3 Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi üzrə əsas komponentləri, anlayışları, fizioloji əsasları haqqında təqdimatlar edir. |
| FTN 4 Sağlamlaşdırıcı, təlimedici, tərbiyəedici vəzifələri nəzərə alaraq qruplar üzrə məşğələlər tərtib edir |
| FTN 5 Gün rejimini tərtib etmək üçün səmərəli yolları seçir |
| FTN 6 Uşaqların inkişaf xüsusiyyətlərini nəzərə alaraq müxtəlif oyunların tətbiqi metodikasindan istifadə edir. |

**Fənnin tədrisində istifadə olunan tədris metodları:**
Bu tələblər aşağıdakı kimi müəyyən olunur:
- ***Təqdimatın hazırlanması***
- ***Yazı işı***
- ***Tapşırıqlar***
- ***Layihələr***
- ***Qrup işləri***
- ***Praktiki məsələnin təhlili***
- ***Laboratoriya işləri***
- ***Kurs işi***
- ***Kollokviumlar***
- ***İmtahan***

**Qaydalar (Tədris siyasəti və davranışı):**

- ***Davamiyyət.*** *Azərbaycan Dövlət Pedaqoji Universitetində tələbələrin dərslərə davamiyyəti məcburidir. Bu səbəbdən də müəllimlər tədris etdikləri fənlər üzrə tələbələrin dərslərə davamiyyətinin düzgün qeydiyyatına cavabdehdirlər.* ***Bütün dərslərdə iştirak edən tələbə 10 bal qazanır.Diqqət, 25% dən çox dərs buraxan tələbə imtahana buraxılmır!***
- ***Akademik plagiat.*** *Plagiat (məsələn, yetərincə istinad verilmədən internetdən köçürmə), kollokviumlarda və ya imtahanda köçürmə cəhdləri (köçürmə baş tutmasa belə!) və ya digər tələbə ilə müzakirə (kömək etmək və ya kömək almaq cəhdləri) tələbənin həmin fəndən çıxarılmasına (akademik kredit borcuna) səbəb olur. Belə halları görən müəllim fakültə rəhbərliyini dərhal xəbərdar etməlidir.*
- ***Auditoriyada etik davranış qaydaları:***
- ***Dərsdə mövzudan kənar söhbətlər:*** *dərsdə kənar söhbətlər tələbələrin fəal dinləmə və qavramasını çətinləşdirir.* ***Başqalarına qarşı diqqətli olun, onların hüquqlarına hörmətlə yanaşın.***
- ***Diqqətsizlik:****Məşğələ vaxtı dərsdən kənar vəsaitlərdən istifadə etmək qadağandır. Akademik dərs saatlarında tələbələrin müzakirələrə qoşulması gözlənildiyinə görə diqqətli olmaq tələb edilir. Bu tələbəyə tədris olunan materialı mənimsənilməsinə kömək edir. Dərs vaxtı elektron qurğulardan ancaq tədris məqsədləri üçün istifadə etmək olar. Mobil telefonlar dərs vaxtı söndürülməlidir.*

- **Tapşırıqlar siyasəti:**
  - ***Tapşırıqların verilməsi və qəbulu:*** *Tapşırıqlar vaxtında tələbəyə təqdim olunmalı və nəzərdə tutulmuş müddətdə icra olunaraq, təhvil verilməlidir. Gecikdirilmiş tapşırıq qəbul edilməyəcək.*
  - ***Təqdimatlar:*** *Mövzu üzrə təqdimatlar, layihələr, hesabatlar və digər tapşırıqlar akademik saat ərzində təqdim olunur.Onların qiymətləndirilməsi də dərs zamanı aparılır.*

**Tələbənin müstəqil işi üçün tapşırıqlar**

Semestr ərzində _ sərbəst iş tapşırığı verilir, hər tapşırığın yerinə yetirilməsi _ balla qiymətləndirilir. Sərbəst işin mövzuları - qiymətləndirmə üsulu şifahi sorğu olduqda- **əlyazma (referat),** təqdimat olduqda isə **Power Point təqdimatı** formasında təhvil verilməlidir.

Sərbəst iş tələbənin fərdi fikirlərinin nəticəsi olduğundan **plagiat yolverilməzdir.**

Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyən edilir.

| № | Sərbəst işin mövzusu | Sərbəst işin təhvil verilməsinin son tarixi | Qiymətləndirmə üsulu |
|---|---|---|---|
| **1.** | Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafı və tərbiyəsi | **III həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **2.** | Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsinin vəzifə və vasitələri | **IVcü həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **3.** | Gün rejimi fiziki tərbiyənin vasitəsi kimi | **V ci həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **4.** | Uşaqların fiziki tərbiyəsində təbii amillərin rolu | **VI-cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **5.** | Səhər gimnastikası və onun keçirilmə metodikası | **VII-ci həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **6.** | Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafında hərəkətli oyunların rolu | **VIII- ci həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **7.** | Azərbaycan xalq oyunları və keçirilmə metodikası | **IX-cu həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **8.** | Məktəbəqədər yaşlı uşaqlara fiziki mümarisələrin aşılanması metodikası | **X-cu həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **9.** | Məktəbəqədər yaşlı uşaqların fiziki inkişaf xüsusiyyətləri | **XI-ci həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **10.** | Erkən yaşlı uşaqların uşaqların fiziki inkişaf xüsusiyyətləri | **XII- ci həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **11.** | 3-yaşdan 6 yaşa kimi uşaqların fiziki inkişaf xüsusiyyətləri . | **XIII- cü həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **12.** | Uşaq bağçasında fiziki tərbiyənin təşkili formaları | **XIV- cü həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **13.** | Fiziki mədəniyyət məşğələsi | **XV- ci həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **14.** | Fiziki tərbiyə üzrə işin planlaşdırılması | **XV- cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **15.** | Uşaq bağçasında fiziki tərbiyə işinə rəhbərlik | **XV- cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |

| | | | |
|---|---|---|---|
| **16.** | Uşaq bağçasında gün rejiminin təşkili | **XV- cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **17.** | Uşaq bağçası müdürinin fiziki tərbiyə işinə rəhbərliyi | **XV- cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **18.** | Metodistin fiziki tərbiyə işinə rəhbərliyinin formaları | **XV- cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **19.** | Hərəkətli oyunların keçirilməsi metodikası | **XV- cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **20.** | Uşaqların hərtərəfli inkişafında Azərbaycan xalq oyunlarının rolu | **XV- cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |
| **21** | Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramında (kurikulumu) fiziki inkişaf,sağlamlıq vı təhlükəsizlik məsələsinin qoyuluşu | **XV- cı həftənin sonu** | **Referat, şifahi sorğu, təqdimat** |

**Kurs işi: (əgər varsa):**

**Kurs işinin mövzusu tələbəyə semestrin əvvəlində təqdim edilir.Onun hazırlanması, tərtibi və s. haqda tələbə məlumatlandırılır. Kurs işi tələbənin tədqiqatçılıq və yaradıcılıq qabiliyyətini formalaşdırmağa xidmət etdiyindən, plagiat yolverilməzdir. Fakültə Elmi Şurasının qərarına əsasən, kurs işini müdafiə etməyən tələbə həmin fəndən imtahana buraxılmır.**

**İmtahanın keçirilməsi forması - yazılı,**

**Semestr ərzində qiymətləndirmə və bal bölgüsü:**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”sini tələbləri əsas götürülərək.

Balların maksimum miqdarı – 100 bal.

***Semestr ərzində toplanan maksimum bal* – 50 bal.**

| | |
|---|---|
| Dərsə davamiyyətə görə | 10 bal |
| Tələbələrin sərbəst işinə (referat, prezentasiya, tədqiqat işi və s.) görə<br>**Qeyd: Plagiat halları qəti qadağandır!** Sərbəst işlə əlaqədar bütün tapşırıqların adı, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu cədvəldə göstərilmişdir. | 10 bal |
| Seminar (məşğələ) nəticələrinə görə | 20 bal |
| Kollokvium | 10 bal |

**- 10 bal** - *tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*
**- 9 bal** - *tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir.*
**- 8 bal** - *tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
**- 7 bal** - *tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*
**- 6 bal** - *tələbənin cavabı əsasən düzgündür.*
**- 5 bal** - *tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*
**- 4 bal** - *tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
**- 3 bal** - *tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır;*
**- 1-2 bal** - *tələbənin mövzudan qismən xəbəri var;*
**- 0 bal** - *suala cavab yoxdur.*

***A) Semestr imtahanı nəticəsinə görə*** **- maksimum 50 bal**

Hər biletdə – **5 sual (4 nəzəri sual və 1 məsələ)**, hər suala – **10 bal** verilir.

**Qeyd:** ***Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır.***

***B) Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında):***

| | | |
|---|---|---|
| **91 – 100 bal** | **əla** | **A** |
| **81 – 90 bal** | **çox yaxşı** | **B** |
| **71 – 80 bal** | **yaxşı** | **C** |
| **61 – 70 bal** | **kafi** | **D** |
| **51 – 60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

**İmtahan sualları:**

1. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyə nəzəriyyəsi
2. Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafı və tərbiyəsi
3. Fiziki tərbiyənin inkişaf tarixi
4. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsinin vəzifələri
5. Fiziki tərbiyənin sağlamlaşdırıcı vəzifəsi
6. Fiziki tərbiyənin təlim vəzifəsi
7. Fiziki tərbiyənin tərbiyəvi vəzifəsi

8. Fiziki tərbiyənin vasitələri
9. Gigiyenik faktorlar- fiziki tərbiyənin vasitəsi kimi
10. Düzgün gün rejimi- fiziki tərbiyənin vasitəsi kimi
11. Səmərəli qidalanma -fiziki tərbiyənin vasitəsi kimi
12. Mədəni-genik adət və vərdişlər -fiziki tərbiyənin vasitəsi kimi
13. Su, hava, günəş vannası- fiziki tərbiyənin vasitəsi kimi
14. Fiziki hərəkətlər.-fiziki tərbiyənin vasitəsi kimi
15. Məktəbəqədər yaşlı uşaqların fiziki inkişaf xüsusiyyətləri (0-3yaşa qədər)
16. 3yaşdan 6 yaşadək uşaqların fiziki inkişaf xüsusiyyətləri
17. Fiziki mümarisələrin səciyyəsi və təsnifatı, uşaqlara aşılanması metodikası
18. Ümuminkişafetdirici mümarisələrin təsnifatı
19. Hərəkətli oyunların səciyyəsi
20. Hərəkətli oyunların keçirilməsi metodikası
21. Uşaqların hərtərəfli inkişafında Azərbaycan xalq oyunlarının rolu
22. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramında (kurikulumu) fiziki inkişaf,sağlamlıq vı təhlükəsizlik məsələsinin qoyuluşu
23. Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında fiziki tərbiyənin rolu
24. Uşaq bağçasında fiziki tərbiyənin təşkili formaları
25. Fiziki mədəniyyət məşğələsi –fiziki tərbiyənin əsas təşkili forması kimi
26. Səhər gimnastikası və keçirilmə metodikası
27. Məktəbəqədər dövrdə sağlamlığın qorunmasında fiziki tərbiyənin rolu
28. Gəzinti zamanı hərəkətli oyunlar və fiziki hərəkətlər- fiziki tərbiyənin təşkili forması kimi
29. Gəzinti və ekskursiyalar- fiziki tərbiyənin təşkili forması kimi
30. Erkən yaşlı uşaqların fiziki inkişaf xüsusiyyətləri və tərbiyəsi.
31. Fiziki tərbiyə-məktəbəqədər yaşlı uşaqların inkişafının əsas komponenti kimi
32. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi üzrə əsas anlayışlar.
33. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsinin fizioloji əsasları.
34. Hərəkətli oyunların nəzəriyyəsi və tarixi
35. Hərəkətli oyunlar keçirilməsi və ona rəhbərlik metodikası
36. Məktəbəqədər yaşda hərəkətlərin təlimi
37. Məktəbəqədər dövrdə fiziki hərəki keyfiyyətlərin inkişafı
38. Məktəbəqədər təhsil müəssisələrində fiziki tərbiyə işinə rəhbərlik
39. Uşaq bağçası müdürinin fiziki tərbiyə işinə rəhbərliyi
40. Metodistin fiziki tərbiyə işinə rəhbərliyinin formaları
41. Tərbiyəçinin fiziki tərbiyə işinə rəhbərlik metodikası
42. P.F.Lesqaft- məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi haqqında
43. Y.A.Komenski- məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi haqqında
44. J.J.Russo- məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi haqqında
45. Uşaq bağçasında gün rejiminin təşkili
46. Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafında təbii amillərdən istifadə
47. Fiziki mədəniyyət məşğələlərinin mərhələləri
48. Mütəhərrik oyunların təşkilinə verilən tələblər
49. Səmərəli qidalanmanın fiziki inkişafda rolu
50. Tərbiyəçinin fiziki mədəniyyət məşğələsinə hazırlığı
51. Səhər gimnastikasının səmərəli təşkilində tərbiyəçinin rolu
52. Fiziki tərbiyənin prinsipləri
53. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində tətbiq olunan metodlar
54. Fiziki təmrinlərin icrasında əyani metodların əhəmiyyəti
55. Fiziki təmrinlərin icrası zamanı metodların qarşılıqlı əlaqəsi
56. Fiziki təmrinlərin icrası zamanı yarış metodundan istifadə
57. Fiziki təmrinlərin icrasında şifahi metodların əhəmiyyəti
58. Uşaqların fiziki tərbiyəsi üzrə valideynlərin pedaqoji maarifləndirilməsi
59. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsində valideynlərin rolu
60. Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafında təbii amillərdən istifa

**Fənnin təqvim-tematik planı. Mühazirə məşğələsi Qrup:**

| Həftələr | Tarix və saat | **Mövzunun sırası, adı və əhatə etdiyi məsələlər (plan)** | **Tapşırıqların məzmunu** | ***Oxu materialı*** |
|---|---|---|---|---|
| **I** | | **Mövzu №1. M/q yaşlı uşaqların fiziki tərbiyəsinin mahiyyəti, məqsədi və vəzifələri**<br>**Plan:** | Ədəbiyyat üzərində iş | **Mühazirə mətni**<br>Sadıqova T.B Məktəbəqədər təhsil müəssisələrində |

| | | | | |
|---|---|---|---|---|
| | | Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi nəzəriyyəsi-uşağın fiziki tərbiyəsinin qanunauyğunluqları haqqında elm kimi. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsinin elmi-nəzəri əsasları. Fiziki tərbiyəsinin mahiyyəti, məqsədi və vəzifələri | | təlim-tərbiyə işinin təşkili. Bakı, Nərgiz , 2010 |
| II | | **Mövzu 2. M/q yaşlı uşaqların fiziki tərbiyəsinin vasitələri.Gün rejimi fiziki tərbiyənin vasitəsi kimi**<br>**Plan:**<br>Fiziki tərbiyənin vasitələrinin təsnifatı<br>Gigiyenik faktorlar fiziki tərbiyənin vasitəsi kimi.<br>Düzgün gün rejimi<br>Səmərəli qidalanma<br>Mədəni-genik adət və vərdişlər<br>Su, hava, günəş vannası<br>Fiziki hərəkətlər. | Referat hazırlama q | **Mühazirə mətni**<br>A.Həsənov Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi Bakı 1974 |
| III | | **Mövzu 3. M/q yaşlı uşaqların səmərəli qidalan.-masının əhəmiyyəti. Səhər gimnastikası və onun keçirilmə metodikası**<br>**Plan:**<br>Uşaqların fiziki inkişafında onların qidalarının və qidalanma şəraitinin əhəmiyyəti.<br>Uşaqların qidalanması zamanı onların qidasına bütün qida maddələrinin daxil olması zəruriliyi. düzgün qurulmasının əhəmiyyəti<br>Səhər gimnastikası hər gün müntəzəm olaraq, yuxudan sonra, səhər yeməyindən əvvəl təşkili. Gimnastikanın təşkilində, aparılmasında tərbiyəçi böyük rolu. | Ədəbiyyat üzərində iş | Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafı və tərbiyəsi. Z.Zeynalova, S.Cəmilzadə. Bakı 2013<br>**Mühazirə mətni** |
| IV | | **Mövzu 4. Uşaqların fiziki tərbiyəsində təbii amillərin rolu**<br>**Plan:**<br>Məktəbəqədər yaşlı uşaqların orqanizmlərinin möhkəmləndirilməsində möhkəmləndirmə amilləri kimi və xüsusi sağlamlaşdırıcı tədbirlər kimi su, hava, günəş vannasından istifadə. | | Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafı və tərbiyəsi. Z.Zeynalova, S.Cəmilzadə. Bakı 2013<br>**Mühazirə mətni** |
| V | | **Mövzu 5. Erkən yaşlı uşaqların uşaqların fiziki inkişafının xüsusiyyətləri (0-3)**<br>**Plan:**<br>Uşağın doğularkən bir sıra anatomik-fizioloji xüsusiyyətlərə malik olması və bu xüsusiyyətlərin getdikcə inkişaf etməsi. Uşaq həyatının birinci ilində ünsiyyət, bələdlilik, əşyalarla davranış fəaliyyətinin ayrı-ayrı növlərinin yalnız böyüklərə münasibət əsasında formalaşmağa başlaması. | İcmal hazırlama q | Məktəbəqədər pedaqogika R.Mursaqulova, N.Rüstəmova, Bakı 2012<br>**Mühazirə mətni** |
| VI | | **Mövzu 6. M/q yaşlı uşaqların uşaqların fiziki inkişaf xüsusiyyətləri (3-6 yaş)**<br>**Plan:**<br>3 yaşdan 6 yaşa qədər olan dövrdə həyatın üçüncü, beşinci və yeddinci illərinin fərqlənməsi, təkcə kəmiyyət artımının deyil, həm də funksiyaların asılı şəkildə yenidən qurulması. 4 yaşdan 5 yaşa qədər olan dövrün inkişafın ən böyük intensivliyi və harmonikliyi ilə fərqlənməsi. | Təqdimat hazırlama q | SadıqovaT.B. Uşaq bağçasında fiziki mədəniyyət. Bakı, 2013<br>Mühazirə mətni |
| VII | | **Mövzu 7. M/q yaşlı uşaqlarla fiziki mədəniyyət məşğələlərin keçirilməsi metodikası**<br>**Plan:**<br>Fiziki mədəniyyət məşğələsinin vəzifəsi<br>Məşğələnin qurluşu<br>Məşğələnin hissələrinin vəzifələri, məzmunu və qarşılıqlı əlaqəsi | Ədəbiyyat üzərində iş | SadıqovaT.B. ktəbəhazırlıq qrupunda ki mədəniyyət şğələləri. Bakı, ıoğlu, 2009<br>Mühazirə mətni |
| VIII | | **Mövzu № 8 Məktəbəqədər yaşlı uşaqların fiziki** | Referat | **Mühazirə mətni** |

| | | | | |
|---|---|---|---|---|
| | | **inkişafında hərəkətli oyunların rolu. Hərəkətli oyunların keçirilməsi və ona rəhbərlik metodikası. Uşaqların hərtərəfli inkişafında xalq oyunlarından istifadə.**<br>**Plan:**<br>Hərəkətli oyunlar tərbiyəvi əhəmiyyəti.<br>Tərbiyəçinin oyun seçdikdə həmin qrup uşaqlarının inkişaf səviyyələrini nəzərə alaraq hərəkətlərin inkişaf etdirilməsi üçün proqrama əsaslanması. Tərbiyəçi öz qrupunda olan uşaqların fərdi xüsusiyyətlərini bilməsi və onlarla aparacağı işə aid qarşısında konkret vəzifələr qoyması. | hazırlama q | Sadıqova T.B . Uşaqlar üçün qaydalı oyunlar. Bakı, Çaşıoğlu, 2009<br><br>Sadıqova T.B. Məktəbəqədər təhsil müəssisələrində uşaq oyunlarıının təşkili. Bakı 2023 |
| IX | | **Mövzu № 9. M/q təhsilin proqramında (kurikulumunda) fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik məsələlərinin qoyuluşu**<br>**Plan:**<br>1.Məktəbəqədər təhsilin kurikulumundada fiziki tərbiyə və onun xarakterik cəhəti<br>2.Məktəbəqədər təhsilin kurikulumundada fiziki tərbiyənin məqsəd və vəzifəsi<br>3.Məktəbəqədər təhsilin kurikulumundada fiziki tərbiyənin sağlamlaşdırıcı və inkişafetdirici əhəmiyyəti.<br>4.Məktəbəqədər təhsilin kurikulumunda fiziki tərbiyənin tətbiqi əhəmiyyəti | Ədəbiyyat üzərində iş | **Mühazirə mətni**<br><br>Məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı – 2022 |
| X | | **Mövzu № 10. Məktəbəqədər yaşlı uşaqlara fiziki mümarisələrin aşılanması metodikası. Məktəbəqə-dər təhsil müəssisələrində fiziki tərbiyənin təşkili formaları.**<br>**Plan:**<br>Məktəbəqədər yaşlı uşaqlara fiziki mümarisələrin aşılanması metodikası. Əsas hərəkətlər.Ümuminkişafetdirici mümarisələr Ümuminkişafetdirici mümarisələrin təsnifatı.Sıra hərəkətləri Fiziki tərbiyəninin təşkili formalarının ümumi səciyyəsi<br>Fiziki mədəniyyət məşğələsi. Səhər gimnastikası. Bədən tərbiyəsi dəqiqələri. Fiziki hərəkətlərlə möhkəmləndirmə tədbirləri. Gəzinti zamanı hərəkətli oyunlar və fiziki hərəkətlər Gəzinti və ekskursiyalar .Uşaqlarla fərdi iş.Uşaqların müstəqil hərəkət fəaliyyəti.Asudə vaxtın təşkili. | Ədəbiyyat üzərində iş | Sadıqova T.B. Uşaq bağçasında fiziki mədəniyyət. Bakı, Nasir, 2013<br><br>Mühazirə mətni |
| XI | | **Mövzu № 11. M/q yaşlı uşaqların fiziki tərbiyəsinin prinsipləri. M/q yaşlı uşaqların fiziki tərbiyəsinin metodları**<br>**Plan:**<br>Şüurluluq və fəallıq.Əyanilik prinsipi.Fərdi yanaşma. Müntəzəmlik prinsipi.Tədricilik prinsipi.<br>Əyani metodlar (Fiziki təmrinlərin nümayişi,imitasiya və s.)<br>Şifahi metodlar (Təsvir, izah, göstəriş, sərəncam)<br>Praktik metodlar (Təmrinlərin təkrarı, oyun metodu, yarış metodu). | Referat hazırlama q | “Məktəbəqədər pedaqogika R.Mursaqulova, N.Rüstəmova, Bakı 2012<br>**Mühazirə mətni** |
| XII | | **Mövzu № 12. Məktəbəhazırlıq qrupunda uşaqların məktəbə fiziki cəhətdən hazırlanması**<br>**Plan:**<br>Məktəbəhazırlıq qruplarında fiziki hazırlığın mühüm əhəmiyyəti Məktəbdə uşağın bütün həyat tərzinin yenidən qurulması, rejimin dəyişməsi, ciddi tədris əməyi, dərs müddətinin uzunluğu, ev tapşırıqlarının yerinə yetirilməsi ondan xeyli fiziki gərginlik, tələb etməsi. Fiziki hazırlıq üzrə həyata keçirilən işlər | Ədəbiyyat üzərində iş | Sadıqova T.B. Uşaq bağçasında fiziki mədəniyyət. Bakı, Nasir, 2013<br><br>**Mühazirə mətni** |
| XIII | | **Mövzu № 13. Gəzinti və ekskursiyaların təşkili metodikası.Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi üzrə ailə ilə iş** | Referat hazırlama q | Sadıqova T.B. Uşaq bağçasında fiziki mədəniyyət. Bakı, Nasir, 2013 |

| | | | | |
|---|---|---|---|---|
| | | **Plan**<br>1.Gəzinti və ekskursiyaların öyrədici,tərbiyəvi, və sağlamlaşdırıcı vəzifələri.<br>2.Gəzinti və ekskursiyaların keçirilməsinə tərbiyəçinin və uşaqların hazırlığı<br>3.Uşaqların fiziki tərbiyəsində ailənin rolu.<br>4.Uşaqların fiziki tərbiyəsində ailə ilə işin müxtəlif formalarından istifadə.<br>5.Valideynlərin pedaqoji maarifləndirilməsi. | | SadıqovaT.B. Məktəbəqəədər təhsil müəssisəələrinin ailələrlə əməkdaşlığı. Bakı 2024<br><br>Mühazirə mətni |
| **XIV** | | **Mövzu № 14 M/q yaşlı uşaqlarda fiziki keyfiyyətlərin formalaşdırılması. Fiziki tərbiyə üzrə işin planlaşdırılması**<br>**Plan:**<br>Məktəbəqədər yaşlı uşaqlarda əsas hərəki keyfiyyətlərin inkişaf etdirilməsi zərurəti. Hərəkətlərin müxtəlif tərzlərlə icra edilməsinin həm də fiziki keyfiyyətlərin inkişafı ilə bağlılığı. Məktəbəqədər yaş dövründə fiziki keyfiyyətlər tərbiyə olunub möhkəmləndirilməsi. Qüvvə, sürət, dözümlülük, çəldlik və s. fiziki keyfiyyətlərin formalaşdırılması.<br>Məktəbəqədər təhsil müəssisələrində fiziki tərbiyə işinin planlaşdırılmasının əhəmiyyəti. Planlaşdırmaya verilən tələblər Planlaşdırmanın növləri:məktəbəqədər müəssisənin ümumi illik planında "Fiziki tərboiyə" bölməsi; müxtəlif yaş qruplarında "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı" əsasında perspektiv və təqvim iş planları. | İcmal hazırlamaq | Məktəbəqədər yaşlı uşaqların fiziki inkişafı və tərbiyəsi. Z.Zeynalova, S.Cəmilzadə. Bakı 2013<br>Mühazirə mətni |
| **XV** | | **Mövzu № 15. Uşaq bağçasında fiziki tərbiyə işinə rəhbərlik**<br>**Plan**<br>Məktəbəqədər təhsil müəssisələrində fiziki tərbiyə üzrə işin düzgün qurulmasını təmin edən şəxslər-müdir, metodist, tərbiyəçi, həkim, tibb bacısı. Uşaqların həyatının qurulmasında , sağlamlıqlarınınmöhkəmləndirilməsində və hərtərəfli fiziki inkişaf etdirilməsində onların məsuliyyəti. | İcmal hazırlamaq | A.Həsənov Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi Bakı 1974<br>T.B.Sadıqova. Məktəbəqədər pedaqogika.Bakı, 2020<br>**Mühazirə mətni** |

***Müəllim:***
***İmza:***
***Tarix:***